**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANIN ŞAMAXI BÖLGƏSİNİN ƏNƏNƏVİ MUSİQİSİ

İxtisas: 6213.01 – Musiqi sənəti

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **İlahə Qismət qızı Abdullayeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Azərbaycan ənənəvi musiqisi və müasir texnologiyalar" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: fəlsəfə elmləri doktoru, professor
**Gülnaz Abutalıb qızı Abdullazadə**

Rəsmi opponentlər: sənətşünaslıq doktoru, professor
**İradə Tofiq qızı Köçərli**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
**Elnarə Rəhim-ağa qızı Dadaşova**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Fəttah Xalıq oğlu Xalıqzadə**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
_________ **Ülviyyə İsmayıl qızı İmanova**

Dissertasiya şurasının elmi katibi: sənətşünaslıq doktoru, dosent
_________ **Leyla Ramiz qızı Zöhrabova**

Elmi seminarın sədri: sənətşünaslıq doktoru, dosent
_________ **Aytac Elxan qızı Rəhimova**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycanın zəngin mədəni irsə malik bölgələri sırasında Şirvan bölgəsi, xüsusilə tarixən paytaxt olmuş Şamaxı rayonu özünün rəngarəng ənənəvi musiqi mədəniyyəti, janr müxtəlifliyi və yaradıcı istiqamətlərin çoxluğu ilə xüsusi diqqət çəkir. Şirvan bölgəsi ənənəvi musiqinin hər bir sahəsinin geniş təşəkkül tapdığı areallardan biridir. Xüsusilə Şirvan bölgəsinin mədəniyyət paytaxtı və incisi sayılan Şamaxı da məhz bu səbəbdən diqqətimizi çəkmişdir. Digər bölgələrlə müqayisədə burada ənənəvi musiqinin müxtəlif sahələri: musiqi folkloru, aşıq yaradıcılığı, muğam sənəti, ifaçılıq ənənələri ayrılıqda hər biri yüksək səviyyədə paralel inkişaf etmiş, hətta bir-birinə qarşılıqlı təsir göstərmiş, yaradıcı mübadilədə olmuşlar. Ənənəvi musiqi haqqında araşdırma dedikdə dissertasiya çərçivəsində tərəfimizdən üç əsas istiqamət: xalq ənənəvi musiqisi, xalq-professional musiqisi (aşıq musiqisi – pişro janrı əsasında) və muğam sənətinin dəyərli təbliğatçıları olan xanəndələrin yaradıcılığının müxtəlif, praktiki, elmi-nəzəri aspektlərdən tədqiqi nəzərdə tutulmuşdur. Ənənəvi musiqinin bu tipli təsnifatı üzrə əsas istiqamətlərinin təyin olunaraq araşdırılması dahi bəstəkar, alim, tədqiqatçı Ü.Hacıbəylidən başlayaraq[1],[2] E.Babayev[3], Ə.İsazadə[4], R.Zöhrabov[5], S.Abdullayeva[6], T.Məmmədov[7] və b. gələcək nəsil etnomusiqişünasların yaradıcılığında davam etdirilmişdir. *"Məlumlur ki, Azərbaycan xalq musiqi yaradıcılığı kursu bəstəkarlıq və həvəskar özfəaliyyət istisna olmaqla, Azərbaycan musiqi mədəniyyətinin*

---

[1] Hacıbəyli Ü. Ə. Azərbaycan xalq musiqisinin əsasları / – Bakı: Apostrof, – 2010. – 176 s.
[2] Hacıbəyli Ü.Ə. Seçilmiş əsərləri:[II clddə] / – Bakı: Şərq-Qərb, – II c. – 2005. – 456 s.
[3] Babayev E.Ə. Şifahi ənənəli Azərbaycan musiqisində intonasiya problemləri. / –Bakı: – 1998. – 146s.
[4] Azərbaycan xalq musiqisi. Oçerklər./ İsazadə Ə.İ., Eldarova Ə.H., İsmayılzadə R.Y. [və b.] – Bakı: Elm, –1981. – 197 s.
[5] Zöhrabov R.F. Muğam. / – Bakı: Azərnəşr, – 1991, – 219 s.
[6] Abdullayeva S.A. Xalq musiqi və rəqslərinin notlaşdırılması tarixindən // – Qobustan, – 1986, №3, –s. 40-42
[7] Məmmədov T.A. Azərbaycan xalq professional musiqisi: Aşıq sənəti. / – Bakı: Şur, –2002. – 96 s.

*ümumi mənzərəsini əks etdirir və bu əksetmədə, ən başlıcası, üç fəaliyyət dairəsi əhatə olunur. Bunlar: 1) mənaca hamılıqlı qəbul olunmuş "musiqi folkloru" anlayışına uyğun xalq musiqisi; 2) xalq-professional musiqisi və 3) şifahi ənənəli professional musiqidir. Azərbaycan xalq musiqisinin bu cür təsnifatı məqsədəuyğundur, çünki hər bir növün ayrılıqda nəzərdən keçirilməsi quruluş, üslub və janr külliyatının ayırd edilməsi ilə yanaşı, nəzərdən keçirilənlərin qarşılıqlı fəaliyyət mənzərəsini qurmağa imkan verir"*[8]. Alimlər tərəfindən qəbul olunmuş bu ənənəvi etnomusiqişünaslıq praktikasını öz təsnifatı üzrə dissertasiya işi çərçivəsində Şamaxı bölgəsinin ənənəvi musiqisinin araşdırılması mövzusuna tətbiq edirik.

Şirvanşahlar paytaxtı Şamaxı rayonunun qədim, özünəməxsus tarixə malik musiqi mədəniyyəti ümumiləşdirilmiş, müqayisəli şəkildə hələ təhlil obyektinə çevrilmədiyindən, bu bölgənin etnomusiqi istiqamətindən araşdırılması və nəticələrin əldə olunması aktual məsələdir. Həmçinin sırf bu bölgə aşıqlarının yaradıcılığına məxsus olan pişro janrının sistemli şəkilə salınması, unudulmaq üzrə olan nümunələrin bərpa edilməsi, partitura şəklində gələcək nəsillərə ötürülməsi, əsl adlarının müəyyənləşdirilməsi və aparıcı xüsusiyyətlərinin üzə çıxarılması və s. baxımından da olduqca əhəmiyyətli mövzudur.

Ədəbi məclislərindən bu yana istedadlı xanəndələri ilə tanınan Şamaxının ifaçılıq ənənələrinin müəyyənləşdirilməsi, özünəməxsus cəhətlərinin digər bölgə ifaçılarından fərqləndirilməsi, ifaçı repertuarına əsasən təsnifatın aparılması günümüzdə müasirləşən, standartlaşan ifaçılar üçün nümunə olması baxımından da aktualdır və praktiki əhəmiyyəti də böyükdür.

Aşıq sənətini istər birbaşa, istərsə də dolayı yolla müxtəlif istiqamətlərdən Azərbaycan musiqi mədəniyyətinin dəyərli simaları və onların ardıcılları araşdıraraq çoxsaylı xidmətlər göstərmişlər. Təsadüfi deyil ki, Azərbaycanda ilk dəfə Üzeyir bəy Hacıbəylinin qoyduğu möhkəm bünövrəyə əsasən, Ə.Bakıxanov, Ə.Bədəlbəyli, M.İsmayılov, H.Adıgözəlzadə, Ə.İsazadə, N.Məmmədov, S.Abdullayeva, R.Zöhrabov, N.Bağırov, E.Babayev, B.Hüseynli,

[8] Azərbaycan xalq professional musiqisi: aşıq sənəti: [Elektron resurs] / Tərtib ed. T. Məmmədov. – Bakı, – 2002.
URL: http://www.musigidunya.az/new/read_magazine.asp?id=39

Ə.Eldarova, Z.Səfərova, S.Seyidova, F.Xalıqzadə, G.Abdullazadə, T.Məmmədov, K.Dadaş-zadə, İ.Köçərli, N.Rəhimbəyli, A.Kərimov, R.Bəhmənli, S.Şirinova, A.Nəcəfzadə, A.Abduləliyev, A.Nəbiyev, Ə.Rəhimov və b. tədqiqatçı alimlər tərəfindən etnomusiqinin tədqiqi üzrə bu ənənə yaşadılmış, həmçinin müasir dövrdə də sözügedən sahə üzrə AMEA-nın Folklor İnstitutunun, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının, Azərbaycan Milli Konservatoriyasının və digər musiqi sənəti ilə əlaqəli mötəbər qurumların professor, müəllim və tədqiqatçı heyətinin fasiləsiz səmərəli fəaliyyəti davam edir. Alim tədqiqatçılar, aparıcı müəllim, seçilmiş tələbə heyətindən ibarət vaxtaşırı təşkil olunan ekspedisiyalardan əldə olunmuş nəticələr daha sonra, məqalələr, monumental əsərlər, dissertasiya işləri olaraq bizə geri dönür.

Bu mövzu haqqında məlumatlar silsiləsinə Azərbaycan Aşıqlar Birliyinin sədri, folklorşünas, filologiya elmləri doktoru, professor Məhərrəm Qasımlı, alim, filologiya elmləri doktoru Seyfəddin Qəniyev, filologiya üzrə fəlsəfə doktoru Elçin Qaliboğlu kimi tədqiqatçıların araşdırmalarının nəticələrində də rast gəlirik.

Professor M.Qasımlı filoloji tərəfləri ilə yanaşı, öz tədqiqatları ilə Şirvan aşıqlarının yaradıcılığı barədə ümumi nəzəri fikirlərin əldə edilməsi, aşıq mühitləri, repertuar diapazonu barədə dəyərli materialları ortaya qoyur. "Ozan-Aşıq ensiklopediyası"[9],[10] isə M.Qasımlının rəhbərliyi altında Azərbaycan Aşıqlar Birliyinin təşkilatçılığı ilə ərsəyə gəlmiş II cildlik monumental kitabdır. Bu ensiklopediyanın yaradıcı heyətində musiqi alimlərinin, professor K.Dadaş-zadə və professor İ.Köçərlinin iştirakı kitabın musiqişünaslıq tərəfinin də güclü olduğundan xəbər verir. Şirvan aşıq sənəti üzrə tədqiqat işi apararkən belə monumental əsərlər dəyərli nümunələrdir.

Şamaxı və onun ətraf ərazilərində toplama işi aparmış macar əsilli etnomusiqişünas Yanoş Şipoşun "Azərbaycan el havaları" kitabı bu mövzunun işləndiyi daha bir dəyərli ədəbiyyatlardandır. İlk dəfə Şamaxıda Aşıq Şərbət və Aşıq Ağamuradın timsalında

---

[9] Ozan-aşıq ensiklopediyası. [II cilddə] / red. Qasımlı M.P. Aşıqlar birliyi, – Bakı: Gənclik, – c. I. – 2019. – 500 s.
[10] Ozan-aşıq ensiklopediyası. [II cilddə] / red. Qasımlı M.P. Aşıqlar birliyi, – Bakı: Gənclik, – c. II. – 2020. – 432 s.

Azərbaycan aşıq sənəti ilə tanış olan Y.Şipoş, onların ifasında Şirvan aşıq havacatlarını nota almış və onların ifa xüsusiyyətlərini Türkiyə Anadolu aşıqları ilə müqayisə etmişdir. O, kitabında aşıqlıq haqqında vurğulayarkən, bu sənətin dini, sufi, dərviş tərəfinin izahını təqdim etmişdir[11]. Bundan əlavə onun tədqiqatı çərçivəsində Şamaxının zikr məclislərinə, xüsusilə qadınlar tərəfindən keçirilən zikr oxumalarına yer verilmişdir. Şamaxının Nabur kəndində qadın zikr məclisini yaxından izləyən Y.Şipoş müşahidələrini qələmə almışdır.

Həmçinin aktual dissertasiya işi mövzusu kimi bölgənin dini musiqi istiqaməti BMA-nın dissertantı, gənc etnomusiqişünas Gülxanım Əsədzadənin tərəfindən də tədqiq edilir. Onun "Şirvanın etnomədəni mühitində dini oxumaların tipoloji xüsusiyyətləri"[12] adlı məqaləsi Şamaxı-Şirvan ərazisinin dini-mədəni mühitinin mənzərəsini təsvir etməklə yanaşı, müasir dövrdə bölgədə müraciət olunan dini janrların əsas xüsusiyyətlərini və özünəməxsus cəhətlərini araşdırır.

Şamaxının musiqi folkloruna aid bəzi not nümunələrini G.Əsədzadənin Şirvan bölgəsi üzrə aparılmış araşdırmaların nəticələrini əks etdirən digər məqalələrində də izləmək mümkündür. "Şirvanın autentik folklor nümunələri" [13] adlı elmi məlaqləsi çərçivəsində Qobustan şəhəri ərazisindən topladığı folklor parçalarını təqdim etmişdir. Bu nümunələrin bir neçəsinin Şamaxı bölgəsində hələ də aktual olduğunun öz tədqiqat işimiz çərçivəsində də şahidi olduq. Təbii ki, bu əvvəllər Qobustanın Şamaxı ərazisinə daxil olması ilə də birbaşa əlaqəlidir. Nümunələr bizim topladığımız parçalarla kiçik melodik variantlılıqla bir-birindən seçilir. Bundan əlavə gənc tədqiqatçı "Şamaxının ənənəvi musiqi mühiti" məqaləsində bölgənin zurna ifaçılığı, muğam və aşıq yaradıcılığı, zikr, dini mərasim musiqisi, məhəlli folklorun tədqiqi kimi mövzulara da toxunmuşdur. Şamaxı kimi dolğun mədəni irsə malik bölgə tədqiqatçılar, etnomusiqişünasların araşdırmaları üçün zəruri və aktual istiqamətlərdəndir.

---

[11] Yanoş Ş.L. Azərbaycan el havaları. / – Bakı: Əbilov, Zeynalov oğulları, – 2005. – s.40

[12] Əsədzadə G.A. Şirvanın etno-mədəni mühitində dini oxumaların tipoloji xüsusiyyətləri // Bəstəkar və Zaman.– Bakı: Mütərcim, – 4 may, – 2022. – s. 101-107

[13] Əsədzadə G.A. Şirvanın autentik folklor nümunələri // – Bakı: Konservatoriya, –2017, №2, – s. 84- 90

Şirvan aşıq sənətinin sufizmlə əlaqəli məqamlarının tədqiqi istiqamətində Qalib Sayılovun yaradıcılığı da xüsusi diqqətimizi çəkmişdir. Bundan əlavə gənc tədqiqatçı “Şamaxının ənənəvi musiqi mühiti”[14] məqaləsində bölgənin zurna ifaçılığı, muğam və aşıq yaradıcılığı, zikr, dini mərasim musiqisi, məhəlli folklorun tədqiqi kimi mövzulara da toxunmuşdur. Çoxşaxəli aparılan araşdırma işləri bölgənin musiqi mədəniyyətinin daha da dərindən açılmasına xidmət edir. Şamaxı kimi dolğun mədəni irsə malik bölgə tədqiqatçılar, etnomusiqişünasların araşdırmaları üçün zəruri və aktual istiqamətlərdəndir.

Şirvan aşıq sənətinin sufizmlə əlaqəli məqamlarının tədqiqi istiqamətində Qalib Sayılovun yaradıcılığı da xüsusi diqqətimizi çəkmişdir. Bundan əlavə müəllifin “Şirvan Aşıq Sənəti: Ənənə və Müasirlik” monoqrafiyası[15] Şirvan aşıq mühitinin keçmişi və bu günü ilə bağlı müəyyən təsəvvürlərin yaranması baxımından, həmçinin bölgənin ustad aşıqları ilə yanaşı müasir, gənc aşıqlarının fəaliyyəti haqqında ərsəyə gətirilmiş dəyərli ədəbiyyatdır. Həmçinin Q.Sayılovun Şirvan aşıq mühitinin çağdaş vəziyyəti ilə bağlı tədqiqatlarının nəticələri olaraq ərsəyə gəlmiş elmi məqalələr müxtəlif beynəlxalq jurnallarda da yer alır.

Aşıq sənətini peşəkar mənbələrdən araşdırarkən bu mövzuda alim, aşıqşünas *(termin T.Məmmədova məxsusdur)*[16], Əminə Eldarova tərəfindən yazılmış ilk fundamental əsərlərdən “Azərbaycan Aşıq sənəti” kitabına xüsusi nəzər yetirilməlidir. Tədqiqatçı Şirvan aşıq (Şamaxı, Kürdəmir və Salyan aşıqları) yaradıcılığını da digər mühitlər kimi araşdırmış və müəyyən elmi nəticələr əldə etmişdir. O, Şirvan bölgəsinin aşıq ifaçılarını digərlərindən fərqləndirərək qeyd etmişdir; *“aşıq musiqisinin klassik ənənəvi qanun-qaydalarını pozur və oxuduqları mahnılara çox vaxt yersiz muğam ünsürləri daxil edirlər”*[17]. Vurğulanan bu məqamlar tədqiqatımız çərçivəsində bizə maraqlı və əhəmiyyətli istiqamətlərdən birini açmışdır. Aşıq musiqisi

---

[14] Əsədzadə G.A. Şamaxının ənənəvi musiqi mühiti // – Bakı: Konservatoriya, – 2016. №4 (34), – s. 37-39

[15] Sayılov Q.Ə. Şirvan aşıq sənəti: ənənə və müasirlik / Q.Sayılov. – Bakı, – 2013. – 148 s.

[16] Məmmədov T.A. Azərbaycan xalq professional musiqisi: Aşıq sənəti / – Bakı: Şur, –2002. – s. 6

[17] Eldarova Ə.H. Azərbaycan Aşıq sənəti. / – Bakı: Elm, – 1996. – s. 26

ilə bölgədəki muğam sənətinin qarşılıqlı əlaqəsi və bu təsirdən doğan özünəməxsusluqlar dissertasiyamız çərçivəsində öz tədqiqini gözləyən aktual məsələlərdəndir.

Şirvanın yaradıcı aşıq mühitinin tədqiqat aktuallığı barədə aşıqşünas, professor T.Məmmədov belə qeyd edir: *“...Şirvan aşıq məktəbindən məlumat hələ ki toplanmayıb. Gələcəkdə, ümidvarıq ki, Azərbaycanın Şirvan zonası aşıqlarının təkrarolunmaz xüsusiyyətlərə malik klassik havalarına da müraciət olunacaq. Bu coğrafi zonanın aşıq havalarının toplanması, sistemləşdirilməsi və nota yazılması milli etnomusiqişünaslığın bugünkü tələbatından irəli gəlir”*[18]. Şirvan və onun incisi Şamaxı bölgəsi öz mədəni irsinin qədimliyi, özünəməxsusluğu, rəngarəngliyi ilə tədqiqatçıların xüsusi diqqətinə layiqdir, aktualdır və tədqiqat üçün kifayət qədər geniş mövzu olaraq hələ də tam açılmamışdır.

Dissertasiya işinin önəmli hissəsini Şirvan (Şamaxı) aşıqlarının repertuarına daxil pişro janrı tutur. Bu mövzunu sistemli şəkildə, bütövlükdə izah edən tədqiqat işinə rast gəlməmişik. Azərbaycan pişrosunun bəzi nəzəri tərəfləri ilə bağlı Sevinc Ziyadlının “Pişrou musiqi janrının tədqiqi məsələlərinə dair” elmi məqaləsində[19] məlumatlanmaq mümkündür. Lakin tədqiqatçı burada janrın digər ölkələrdəki nümunələrinə əsasən tarixi köklərinə nəzər salmış, onu muğam sənəti ilə bağlayaraq mövzuya fərqli aspektdən baxmışdır. Məqalədə E.Mansurov, A.Kərimov, “Azərbaycan diringi və rəngləri” kitabında yer alan “Pişro”[20] və “Qədim pişro”[21] not nümunələrinin nəzəri təhlili təqdim olunur. Şamaxı bölgəsi üzrə tədqiqatımız zamanı əldə olunmuş mətnli oxunan pişro siyahısı çərçivəsində “Pişro” və “Qədim Pişro” adlı nümunələrə isə rast gəlinməmişdir. “Pişro” adlı daha bir nümunə tədqiqatçı Rauf Bəhmənlinin

---

[18] Məmmədov T.A. Azərbaycan xalq professional musiqisi: Aşıq sənəti. / –Bakı: Şur, –2002. – s.7

[19] Ziyadlı S.S. Pişrou musiqi janrının tədqiqi məsələsinə dair // – Bakı: Azərbaycan Musiqi Tarixi və Müasir Dövr, ADK–nın nəşri, – 1994, –115-118 s.

[20] Mansurov E.B., Kərimov A.K., Azərbaycan diringi və rəngləri [Notlar] / E.Mansurov, A.Kərimov. – Bakı: İşıq, – 1986. – s. 25

[21] Mansurov E.B., Kərimov A.K., Azərbaycan diringi və rəngləri [Notlar] / E.Mansurov, A.Kərimov. – Bakı: İşıq, – 1986. – s. 35

“Azərbaycan qədim rəqs havaları”[22] adlı monoqrafiyasında yer alır. Burada parça rəqs melodiyası kimi təqdim olunur. Nəticədə bu melodiyaların əsası ilə bağlı suallar doğur.

Pişro janrının melodiyasının ilk not nümunələrinə birsəsli olaraq aşıqşünas, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Kamilə Axundova (Dadaş-zadə) “Aşıq Şamil Piriyev”[23] 1986-cı ilə aid metodiki materialında rast gəlirik. Həmçinin Z.Səfərovanın layihə rəhbərliyi və redaktorluğunda ərsəyə gəlmiş “Azərbaycan musiqi tarixi” kitabının I cildinin II fəslində də “Azərbaycan aşıq sənəti” haqqında olan ətraflı tədqiqat işinin daxilində Şirvan bölgəsinin pişro janrına dair dəyərli məlumatlar yer alır[24]. Instrumental pişro nümunələrinə dosent İlqar İmamverdiyevin tədqiqatlarında da rast gəlmək mümkündür. 2005–2006-cı illərdə müəllifin üç kitab olaraq “Azərbaycanın 20 saz havası” adlı not nümunələrindən ibarət əsərləri işıq üzü görmüşdür. III kitabda solo saz üçün “peşrov”[25] nümunəsi yer almaqdadır. Həmçinin Şirvan aşıq yaradıcılığı üzrə geniş təhlillər və 34 havanın not yazılarının olduğu “Şirvan aşıqlarının saz havaları” adlı dəyərli elmi vəsaitində də mövcuddur[26]. Sənətşünaslıq üzrə fəlsəfə doktoru Xanım Əliyeva dissertasiya işi[27] çərçivəsində “Segah məqamına əsaslanan havaların təhlili” paraqrafında “İbrahim peşrovu”nu nota alaraq, məqam xüsusiyyətləri istiqamətindən ətraflı təhlil etmişdir. Nümunə Aşıq Mahmud Ələsgəroğlunun ifasından nota alınmışdır. Onu da qeyd edək ki, “İbrahim peşrovu” melodiyası alim K.Axundzadənin “Aşıq Şamil Piriyev” metodiki materialında “Kərəmi peşrovu” adı altında nota alınmışdır. Nəticədə bütün nümunələr nəzərdək keçirilərək, kök əlaqənin açılması növbəti aktual məsələlərdəndir.

Müasir tədqiqat işləri çərçivəsində Zülfiyyə Hüseynovanın

---

[22] Bəhmənli R.B. Qədim rəqs havaları. / – Bakı: Şərq–Qərb, – 2021. – s. 336

[23] Axundova K. H., Aşıq Şamil Piriyev. metodiki material. / – Bakı:, 1988. – 36 s.

[24] Azərbaycan musiqi tarixi. [Beş cilddə] / Səfərova Z.Y., – Bakı: Şərq-Qərb, – c. 1. – 2012. – s.81

[25] İmamverdiyev İ.C. Azərbaycanın 20 saz havası. [III kitabdan]/ İ.C.İmamverdiyev. – Bakı: Şirvannəşr, – kitab III, – 2006. – s.72

[26] İmamverdiyev İ.C. Şirvan aşıqlarının saz havaları haqqında / İ.C.İmamverdiyev. – Bakı: Ozan, – 2011. – s.72

[27] Əliyeva X.A. Şirvan aşıq havalarının məqam və melodiya xüsusiyyətləri. / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. / – Bakı: –2014, – 158 s.

"Şirvan aşıq havalarının janr və üslub xüsusiyyətləri" adlı dissertasiyası da bizə məlumdur. Baxmayaraq ki, o, Şirvanda 11 pişro nümunəsinin olduğunu qeyd edir[28], lakin dissertasiya işi daxilində isə təksəsli formada "Şəmsi-Qəmər", "Obaköçdü", "İbrahimi", "Çobanyaylağı", "Telli sazım", "Əlicadı" olmaqla 6 pişro nümunəsini nota alaraq müqayisəli təhlilə cəlb etmişdir.

Bölgə üzrə araşdırmalar arasında magistratura pilləsi üzrə Həcər Məmmədli tərəfindən Qobustan bölgəsi ərazisində aparılmış tədqiqat işi də yer alır. H.Məmmədli "Çoban yaylağı" peşrovu" adlı məqaləsi[29] diqqətimizi çəkmişdir. Burada "Çoban yaylağı", "Telli sazım", "Hicazi", "Kərəm", "Əlicazib", "Yarıma bənzər" və s. kimi 6 pişro not nümunəsinin birsəsli melodiyası yer almaqdadır. Burada bir çox pişro nümunəsinin adları müxtəlif cür qeyd edilmiş, bəzilərinin adı isə mətndən götürülmüşdür. Burada da pişrolar birsəsli, melodiya şəklində yazılmışdır. Burada "Əlicazib" – "Əlicadi"; "Telli sazım" – "Bilal pişrosu"; "Kərəm pişro" – "İbrahimi" və s. olaraq rastımıza çıxır. Məqalə halında dərc olunmuş "Çoban yaylağı" pişrosunu isə bizim nümunə ilə qarşılaşdırdıqda fərqli mətnlə ifa olunsalar da melodik cəhətdən əldə etdiyim parça ilə eynilik təşkil edir. Şirvan aşıq yaradıcılığında pişro melodiyaları bəzən fərqli gəraylılarla ifa olunduğundan, mətnlər müxtəlif ola bilər. Pişronun adının ifa olunan mətnlə əlaqələndirilməsi sadəcə onların adlarının çoxalaraq say probleminin yaranmasına gətirib çıxarmışdır.

Ərsəyə gəlmiş tədqiqat nəticələrindən məlum olduğu kimi, Şamaxı musiqi mədəniyyətinin müxtəlif hissələri ayrılıqda tədqiqat obyekti olsa da, mövzuya hələ də ümumiləşdirilmiş kontekstdə, sistemli şəkildə yanaşılmamışdır. Buna əsasən pişro janrının ətraflı tədqiqi aktualdır. Şirvan-Şamaxı bölgəsinin musiqi mədəniyyətini tam əhatə etmək üçün çoxsaylı və davamlı tədqiqatların, ekspedisiyaların təşkili zəruridir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin obyekti Azərbaycanın qədim mədəniyyətə malik Şamaxı bölgəsinin ənənəvi

[28] Hüseynova Z.R. Şirvan aşıq havalarının janr və üslub xüsusiyyətləri./ sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı: – 2025. – s.15

[29] Məmmədli H.Ə. "Çoban yaylağı" peşrovu //– Bakı: Konservatoriya, –2017, №2, – s. 47-51

musiqisidir. Predmetini isə bölgədə aparılmış ekspedisiyalardan əldə olunmuş konkret musiqi materiallarının tarixi və nəzəri cəhətdən, mətn və musiqi vəhdəti, forma yaradıcı prinsipləri, melodik quruluşu, məqam və ritm xüsusiyyətiləri kimi amillərin araşdırılması təşkil edir. Bundan əlavə bölgənin aşıq, balaban, xanəndə ifaçılıq ənənələri kimi mövzulara da xüsusi diqqət yetirilmişdir. Rəqs mədəniyyətinin tarixi ilə yanaşı, müasir dövrdə balaban yaradıcılığında rəqs musiqisinə müraciət, yeni bəstələnən rəqs parçalarının nota alınması və təhlilinə də dissertasiyada yer ayrılmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Elmi-tədqiqat işinin əsas məqsədi Azərbaycanın Şamaxı bölgəsinin ənənəvi musiqisinin özünəməxsus cəhətlərini araşdırmaq: musiqi folklor nümunələri aşkarlamaq, Şirvan-Şamaxı aşıq mühitinə və xanəndə yaradıcılığına xas xüsusiyyətləri müəyyənləşdirmək, Azərbaycanda yalnız Şirvan aşıq mühitinə aid pişro nümunələrini toplamaq, janra daxil parçaların sayını müəyyənləşdirmək və bütün əldə olunmuş musiqi materiallarını nota salaraq elmi səviyyədə təhlil etməkdir. Məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin həlli nəzərdə tutulur:

- Şamaxı bölgəsinin tarixi-coğrafi ərazisinə əsasən etnomühitinin, tarixi-estetik inkişafının və ona təsir edən amillərin araşdırılması;
- Bölgədə indiyədək aparılmış elmi tədqiqatların nəticələrinin öyrənilməsi;
- Dissertasiyada qarşıya qoyulmuş problemin həlli yolunda əldə edilmiş materialların emalı və bir-biri ilə əlaqələndirilərək nəticəyə gəlinməsi;
- Bölgəyə silsilə ekspedisiyaların təşkili və müasir etnomühitin tədqiq edilməsi;
- Şamaxı bölgəsinə məxsus musiqi folklor nümunələrinin toplanılması, nota salaraq təhlil olunması;
- Şamaxının ustad balabançılarının bəstələdiyi, xalqın folkloruna hopmuş bəzi mübahisəli məqamları olan rəqs nümunələrinin nota alınaraq öncəki not yazıları ilə müqayisə edilməsi;
- Şamaxı aşıq yaradıcılığında mövcud olan pişro ansambl nümunələrinin toplanılması və onların ansambl partitura şəklində nota salınması;
- Şamaxıda aşıq və xanəndə sənətinin qarşılıqlı təsiri, onları bir-birinə bağlayan məqamların üzə çıxarılması;

- Bölgənin xanəndə ifaçılıq ənənələrinin tədqiqi və özünəməxsusluğun müəyyənləşdirilməsi;

**Tədqiqat metodları.** Dissertasiya işinin metodoloji əsasını məntiqi mühakimənin deduktiv – paraqraflarda mövzunun və əsas fikrin ümumidən fərdiyə doğru açıqlanması, induktiv – konkret materialların üzərində faktların izahının təqdim olunması təşkil edir. Bu metodlarla tədqiqat zamanı predmetin ümumiləşdirilmiş və təkrar olunan xüsusiyyətləri təyin edilərək elmi nəzəri nəticələrə gəlinmişdir. Tarixi-müqayisəli, praktiki, təhlil və tətbiq metoları ilə yanaşı not nümunələrinin araşdırılması ilə bağlı olaraq tarixi-müqayisəli təhlil, elmi nəzəri-praktiki baxışlar və tanınmış rus etnomusiqişünası E.V.Gippiusun[30] yaradıcılığında təsadüf etdiyimiz analitik not yazısı metodundan istifadə olunmuşdur. Bütün bunlarla yanaşı, etnomusiqişünaslıq sahəsində alim, aşıqşünas, etnomusiqişünaslardan – Ü.Hacıbəyli, M.Maqomayev başda olmaqla, B.Hüseynli, M.İsmayılov, R.Zöhrabov, G.Abdullazadə, S.Abdullayeva, K.Dadaş-zadə, T.Məmmədov, İ.Köçərli, R.Bəhmənli, C.Həsənova, F.Xalıqzadə, X.Əliyeva, G.Verdiyeva və b. elmi tədqiqat əsərlərindən əldə olunmuş metodoloji təcrübə də diqqətə alınmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Araşdırma apararkən irəli sürüdüyümüz əsas müddəalar bunlardır:

- Şirvan aşıq məktəbinin spesifik cəhətləri və onları digər bölgə aşıqlardan fərqləndirən məqamlar (səs tembri, ifa tərzi, repertuar və s.) mövcuddur;
- Hazırda Şamaxı aşıq repertuarında işlək 11 pişro nümunəsi var. Silsiləvi formatda ansambl partitura şəklində notlaşdırılmış nümunələrə əsasən demək olar ki, pişroların bir çox özünəməxsusluqları ilə yanaşı iki ritmik qruplaşması mövcuddur;
- Pişroların sonunda bəzən ritmik, kontrastlı "klassik aşıq ayağı" ifa edilir;
- Bölgədə hələ də nota alınmamış folklor nümunələri vardır;
- Şamaxı xanəndələri digər bölgə ifaçıları ilə müqayisədə ifa tərzi, dialektik və tembr xüsusiyyətlərinə görə fəqlənir;

[30] Гиппиус Е.В., Балакирев М.А. – собиратель русских народных песен (очерк первый) // Советская музыка. –1953. №4, – с. 69-76

- Bölgə xanəndələri repertuarlarına əsasən üç istiqamətdə fəaliyyət göstərir. Yalnız dəstgah, muğam ifa edən **klassik xanəndələr**, aşıq və muğam parçaları ifa edən **aşıq-xanəndəsi**, günümüzün populyar el və bəstəkar mahnılarını ifa edən **müasir xanəndələr**;

**Tədqiqatın elmi yeniliyi.** Müasir dövrdə Şamaxı bölgəsinin ənənəvi musiqisinin qolları, hər bir istiqamətin bölgə mədəniyyətindəki yeri və əhəmiyyəti haqqında ümumiləşdirilmiş məlumat verilir. Şamaxının xalq musiqi repertuarının işlək nümunələri müəyyənləşdirilmiş və cədvəl şəklində sistemləşdirilmişdir. Eyni zamanda bölgənin zurna-balaban, xanəndə ifaçılığı ənənələrinə əsasən aparıcı tendensiyaları vurğulanmışdır. Xanəndələrin repertuar özünəməxsusluqlarına görə təsnifatı aparılmışdır. Yeni folklor nümunələri aşkarlanmış, notlaşdırılaraq elmi təhlilə cəlb edilmişdir. Şamaxının tanınmış xalq musiqiçiləri haqqında qeydlər toplanmışdır. Həmçinin müasir Şamaxı xalq musiqi ənənələrinin davamlılığının tədqiqi məqsədi ilə müxtəlif ifaçıların fəaliyyəti tədqiqata cəlb edilmiş, nəzəri təhlillər aparılmışdır.

Balaban transportu nəzərə alınaraq rəqs nümunələri nota alınmış və dissertasiyada elmi nəzəri aspektdən təhlili ilə birlikdə təqdim olunmuşdur. İlk dəfə pişro janrın tarixi arealı, forması və musiqi mədəniyyətimizdəki əhəmiyyəti geniş araşdırılmışdır.

Hazırda təqdim olunan dissertasiya işinin əhəmiyyətini artıran əsas məqamlardan biri də pişro janrına aid əldə olunmuş nümunələrin hər birinin burada ilk dəfə olaraq bütövlükdə ansambl partitura şəklində nota alınmasıdır. Təbii ki, bu məqam dissertasiya işinin elmi-nəzəri tərəfi ilə yanaşı, onun praktiki əhəmiyyətini də artırır. Bu gələcək nəsil ifaçılar üçün qalıcı mənbə kimi də hər zaman aktuallıq təşkil edəcək.

Nümunələrin sadə melodiya olaraq deyil, partitura formasında yazılması fikiri də məhz sənətşünaslıq üzrə fəlsəfə doktoru, bəstəkar Həsən Adıgözəlzadənin "Şirvan şikəstəsi"ni [31] partitura şəklində yazmaq təşəbbüsünün davamıdır. Belə ki, bu bölgənin aşıq havalarının partitura şəklinə salınmasına daha sonralar sənətşünaslıq üzrə fəlsəfə doktoru X.Əliyevanın da dissertasiya işində rast gəlirik.

[31] Адигезал-заде Г.А. Становлене и развитие этномузыковедения в Азербайджане. [Notlar] // – Баку: Адильоглы, –2008. – s. 298– 324

Biz də notlaşdırma zamanı ənənəvi simfonik və xalq çalğı alətlərinin ardıcıllıq qanunauyğunluqlarını əsas götürərək: yuxarıda nəfəs aləti balaban, vokal, zərb alətləri və saz olmaqla partitura ardıcıllığı müəyyən olunur. Belə sıralama beynəlxalq partitura ənənələrinə uyğundur.

Həmçinin dissertasiyanın ilk fəslində bölgəyə aid musiqi folkloru nümunələrindən indiyədək nota alınmamış, unudulmaq üzrə olan mahnıları da bərpa olunmuş, nota alınaraq nəzəri təhlil edilmişdir.

Şamaxının müasir dövr mədəni həyatında keçmiş ənənələri yaşadan ifaçılar haqqında məlumat toplanmışdır. Bölgənin müasir aşıq repertuarına daxil havaların aktuallıq təsnifatı aparılmışdır. Eyni zamanda bölgənin aşıq və xanəndə ifaçılığının məxsusi xüsusiyyətləri tədqiq olunmuş, onları digər bölgə sənətçilərindən fərqləndirən amillər təyin edilmiş, müqayisəli təhlillər aparılmışdır. Həmçinin ilk dəfə Şirvan xanəndələrinin ifa repertuarına əsasən təsnifatı aparılmışdır.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Azərbaycanın Şamaxı bölgəsinin ənənəvi musiqisi ilk dəfə olaraq elmi nəzəri aspektdən ümumiləşdirilmiş şəkildə bir dissertasiya işi çərçivəsində tədqiq edilmişdir. Burada musiqi folkloru, rəqs mədəniyyəti, Şirvan aşıq yaradıcılığı, xüsusilə pişro janrı ilə yanaşı, bölgənin xanəndə ifaçılıq ənənələri kimi ənənəvi musiqinin əhəmiyyətli istiqamətlərinə aydınlıq gətirilmiş, bölgədə aparılan silsilə ekspedisiyalar nəticəsində hər bir başlığa uyğun etnomusiqi nümunələri əldə olunmuşdur. Bu nümunələrə əsasən mövcud istiqamətlərin tədqiqi məsələləri ön plana çəkilmişdir. Hazırkı dissertasiya işinə qədər Şirvanın balaban ifaçılıq ənənələrinə, bölgənin pişro janrına, xanəndələrin ifaçılıq xüsusiyyətlərinə ətraflı baxılmamışdır. Tədqiqat çərçivəsində gəlinmiş elmi nəticələr, nota alınaraq sistemləşdirilmiş nümunələr, müqayisəli təhlillər tədqiqatın nəzəri əhəmiyyətini təşkil etməklə yanaşı, etnomusiqişünasların da mənbə, ədəbiyyatının genişləndirir. Bölgənin musiqi sahəsinə aid müxtəlif janrların bir-birinə olan təsiri və qarşılıqlı intonasiya, səciyyəvi xüsusiyyətlərin mübadiləsi ətrafında tədqiqat aparılmışdır.

Dissertasiyada sayı və adları etibarilə mübahisəli mövzulardan biri olan pişro janrına xüsusi diqqət yetirilmiş, İşlək bütün pişrolar toplanılaraq partitura şəklində nota alınmış və nəzəri təhlil edilmişdir.

Bölgənin məşhur zurna-balaban ustadı, çoxsaylı rəqslərin müəllifi Əli Kərimovun "Çəməni" rəqsi müxtəlif not yazıları üzərindən müqayisəli təhlil olunmuş, nəticədə müəllifin öz ifasından bir daha ansambl şəklində yenidən nota alınıb təhlil edilmişdir. Uzunmüddətli tədqiqat, ekspedisiyalar nəticəsində ərsəyə gəlmiş musiqi folklor nümunələrinin, rəqs havalarının və pişroların not yazılarının gələcəkdə musiqiçilərin ifasına və həmçinin tədris prosesində istifadəyə əlavə ədəbiyyat olması dissertasiya işinin praktiki hissədir. Onu da qeyd edək ki, əldə olunan nümunələr təhlil məqsədi ilə qısa parçalar halında deyil, kamil ifa formasında notlaşdırılmış, II cild kimi dissertasiyaya əlavə edilmişdir. Unudulmaq üzrə olan pişroların da gələcək nəsillərə musiqisi tam, partitura şəklində ötürülməsi dissertasiyanın praktiki əhəmiyyətini gücləndirən amillərdəndir.

Ümumiyyətlə, dissertasiyanın pratikiliyinin artırılması məqsədi ilə tədqiqat işinin sadə və aydın elmi dillə yazılmasına xüsusi diqqət yetirilmişdir. Məhz bu səbəbdən bölgənin xalq yaradıcılığı ilə bağlı maraqlanan hər bir kəs üçün tədqiqat işi oxunaqlı və yararlı olacaqdır.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin tədqiqi üzrə ayrı-ayrı müddəaları və əsas nəticələri tərəfimizdən yazılan məqalələrlə müxtəlif yerli və beynəlxalq jurnallarda dərc olunmuşdur. Həmçinin tədqiqat işi əsasasında hazırlanmış məruzələr respublika və beynəlxalq konfransların yekun toplularında, dövri elmi mətbuatda da öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Azərbaycan ənənəvi musiqisi və müasir texnologiyalar" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Təqdim edilən dissertasiya "Mündəricat", "Giriş", üç "Fəsil", beş paraqraf, "Nəticə", "İstifadə edilmiş ədəbiyyat siyahısı", saytoqrafiya, notoqrafiya və not nümunələrinin yer aldığı əlavə cilddən ibarətdir. Dissertasiyanın struktur bölmələrinin həcmi isə: "Giriş" 14 səhifə – 25 124 işarədən, I Fəsil 20 səhifə – 35 789 işarə, II fəsil 2.1. paraqraf – 12 səhifə, 17 547 işarə, 2.2. paraqraf 15 səhifə – 25 520 işarə, 2.3 paraqraf 17 səhifə – 30 539 işarə, III fəsil 3.1. paraqraf 14 səhifə – 23 575 işarə, 3.2. paraqraf 13 səhifə –

21 326 işarə, 3.3. paraqraf 22 səhifə – 36 993 işarə, “Nəticə” bölməsi isə 14 səhifə – 25 335 işarədən ibarətdir. Dissertasiyanın sonunda “İstifadə edilmiş ədəbiyyat siyahısı”, saytoqrafiya və notoqrafiya yer almaqdadır. Həmçinin dissertasiya işinə aid not nümunələri əlavə cild olaraq hazırlanmışdır.

Ədəbiyyat siyahısı və 197 səhifəlik “Əlavələr” cildi istisna edilməklə ümumilikdə dissertasiya işinin özü 154 səhifə, istifadə olunmuş ədəbiyyat siyahısı istisna olmaqla 242 935 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın “Giriş” hissəsi ümumilikdə tədqiqat işinin ərsəyə gəlməsi üçün yaranmış zəruri məqamlara aydınlıq gətirir. Burada mövzunun aktuallığı, işlənmə dərəcəsi, məqsəd və vəzifələr,elmi yeniliyi və s. kimi əsas mövzular geniş açıqlanır. I fəsil **“Azərbaycanın Şamaxı Bölgəsinin tarixi-coğrafi və mədəni mənzərəsi”** adlanır. Azərbaycanın mədəni mühitinin mərkəzlərindən sayılan, qədim paytaxt Şamaxının tarixi-coğrafi şəraitinə uyğun olaraq mədəniyyətinin inkişaf qaynaqları, bölgənin tarixiliyini açıqlaya biləcək əsas istiqamətlərdən biri kimi toponimik kökləri, mədəni sərvəti, etnomədəni ənənələri və onların musiqi sənətində təzahürü, poeziya məclislərinin bölgənin mədəni irsinə göstərdiyi təkan kimi mövzularla yanaşı, Şamaxının Azərbayccan mədəniyyətindəki tarixi yeri və əhəmiyyətindən bəhs edilmişdir.

Qədim mədəni tarixə malik olan Şamaxı bölgəsi üzrə tədqiqat işi apararkən onun etnomədəni mühitinin geniş mənzərəsinin açılması baxımından Şirvan arealına da nəzər salınmışdır. Seysmatik bölgə qəbul edilən Şamaxıda dəfələrlə böyük zəlzələlər baş vermişdir. Bu fəlakərlər səbəbi ilə ədəbi mənbələr itirilmiş, bölgənin mədəni tarixinin araşdırılmasında çox da dərin tarixlərə getməkdən məhrum olmuşuq. Əl çatan mənbələr əsasən XIX əsrlərdən başlayaraq bölgənin mədəni mənzərəsini daha aydın təsvir edə bilir. Şamaxı bölgəsi hər zaman **etnomədəni** mühitinin özünəməxsusluğu, zənginliyi ilə seçilirdi. İstedadlı bölgə sakinlərinin böyük qismi oxumağı və oynamağı gözəl bacarardı. Folklor nümunələrindən nəğmələr, həmçinin rəqs mədəniyyəti geniş tədqiqat mövzusu kimi diqqət çəkir. Heç təsadüfi deyil ki, orta əsrlərdə Şərqdə Şamaxı

“Darül-ədəb”, yəni ədəb universiteti kimi məşhurlaşmışdı. Hələ qədimdən qazanılmış bu ad Şamaxının mədəni mühitinin yüksək səviyyəsinin göstəricilərindəndir.

XIX əsrdə Azərbaycanda dini idealogiyanın, din xadimlərinin yaratdığı idealist atmosferin güclü olduğu dövr olmasına baxmayaraq ədəbi və şifahi ənənəli professional musiqi mühiti çətinliklə də olsa, sənətsevərlər tərəfindən inkişaf etdirildi. Belə məşhur sənət ocaqları, adlı-sanlı kübar məclislər isə Bakıda “Məcməüş-şüəra”, “Məşədi Məlik Mənsurovun salonu”, Şuşada “Məclisi üns”, “Nəvvabın məclisi”, “Məclisi xamuşan”, Şamaxıda “Beytüs-səfa”, “Mahmud Ağanın dərnəyi” və s. olmaqla seçilirdilər. Hər bir poeziya məclisi həmin regionun ənənələrinin davamçılarını yetişdirirdi. Şamaxının mədəni mühitini açmaq üçün mütləqdir ki, bölgənin poziya gecələrinə, muğam məclislərinin tarixçəsinə nəzər salınsın.

Ümumilikdə II Fəsil **“Şamaxı bölgəsinin ənənəvi musiqi mühiti”** mövzusuna həsr olunmuşdur**. 2.1 “Şamaxı bölgəsinin musiqi folklorunun öznəməxsus cəhətləri”** – Göründüyü kimi Şamaxı bölgəsi etnomədəni mühiti tədqiqat obyekti olaraq olduqca əhatəli və zəhmət tələb edən mövzudur. Burada həm autentik folklor, həm şifahi xalq professional ənənəli musiqisi, həm aşıq sənəti və s. bir-biri ilə üzvi surətdə vəhdətli inkişafda olmuş, cəmiyyətin sabit həyat tərzi ilə həmahənglik təşkil etmişdir. Təbii ki, günümüzdə xalq mahnısı adlandırdığımız nəğmələrin də əvvəllər müəyyən bir bəstəkarı olmuşdur. Lakin, hər dövrün imkanları musiqinin nota yazılması, saxlanması tələbinə cavab vermədiyindən, onlar vaxtaşırı “xalq mahnısı”, “xalq rəqsi” adı altında cəmləşdirilmişlər.

Növbəti paraqrafda bölgə üzrə aparılmış silsilə ekspedisiyalar çərçivəsində toplanan folklor nümunələrinin not yazılarının elmi təhlili yer alır. Şamaxı bölgəsi çərçivəsində apardığımız ekspedisiyalar nəticəsində bir neçə autentik folklor nümunələri əldə olunmuşdur. Toy mərasimi hər bölgənin özünəxas xarakterik xüsusiyyətləri, fərdi ənənələri ilə bir-birindən fərqlənir. Həmçinin Şamaxının da toy ənənələrinin qorunub saxlanılması, bölgənin mədəni həyatını əks etdirən nümunələrin toplanması yeni nəsilə ötürülməsi və yaşadılması baxımından mühimdir.

Onlar arasında toy mərasimi ənənələrini icra edərkən qadınlar

tərəfindən, yaxud ananın dilindən övladına xeyir-dua məqsədi ilə ifa olunan “Xoş getdin”, “Xoş gəldin”, “Əylən, gəlin”, “Qaynana” və s. kimi bölgə mahnıları olduqca özünəməxsus və maraqlı nümunələrdir.

**2.2. Bölgədə rəqs mədəniyyətinin tarixi və onun inkişafında balaban ifaçılarının rolu** – Digər mədəni sahələr kimi rəqs mədəniyyəti də bölgə ənənələrində xüsusi yerə malikdir. Mənbələrdən rəqs mədəniyyətinin tarixini saraylar dövrünə kimi izləyə bilirik. Bölgə hələ qədimdən öz musiqiçiləri, istedadlı rəqqasları ilə dünyaya səs salmışdır. Saray rəqqasələri eyni zamanda gözəl səsə malik olub, xanəndəlik də etdikləri bilinir. Şirvanda istedadlı saray xanəndə və rəqqasələrindən Kütahi, Qəndi, Rəna, Nisə, Səkinə, Sona kimi xanımların adlarını qeyd edə bilərik. Burada “cəngi” dəstəsi adı altında tanınan səkkiz qız rəqqasə Şamaxının o dövr üçün rəqs mədəniyyətinin parlaq ifaçıları idi.

Vaxtikən Şamaxının qonağı olmuş dünyaşöhrətli şəxsiyyətlərdən fransız yazıçılar A.Düma, yazıçı J.Artur, general P.Baqration və D.Şamaxının musiqi və rəqs mədəniyyətinə heyran olmuş, öz əsərlərində, mənbələrdə bu mövzuya yer vermişlər. Belə nəticəyə gəlmək olar ki, XIX əsrin ortalarında artıq Şamaxıda musiqinin, rəqs mədəniyyətinin kamil dərəcəyə çatması bölgənin mədəni həyatının aktivliyindən, xalqın estetik zövqünün inkişafetmiş olmasından, həmçinin burada mədəni prosesin çoxdan başlayaraq formalaşmasından xəbər verir. Bunun başlıca səbəblərindən biri Şamaxının mərkəz olması və həmçinin saray həyatının xalqın mənəvi inkişafını da stimullaşdırması idi.

Hazırkı paraqrafda bölgənin zurna-balaban ifaçılıq ənənələri qoruyaraq nəsildən-nəsilə ötürən, eyni zamanda rəqs musiqi irsini zənginləşməsinə xidmət göstərən dəyərli ustad ifaçıların yaradıcılığına nəzər salınmışdır. Şamaxının XIX əsrdən bu günə kimi davam edən ifaçılıq ənənələrinin sadiq və məşhur zurna-balaban davamçılarından: Murad Mirzalı oğlu, Əli Kərimov, Həsrət Hüseynov, Əlibaba Heydərov, Ağasəf Seyidov, Rasim Ələsgərov kimi sənətçilərin yaradıcılığı işıqlandırılmışdır.

Dissertasiya çərçivəsində Əli Kərimovun unudulmaz rəqs parçalarından “Çəməni” rəqsi müqayisəli tədqiqat obyektinə çevrilmiş, təhlil edilərək bir daha müəllifin ifasından transportlu

şəkildə nota alınmışdır. Bundan əlavə müasir dövrdə rəqs yaradıcılığının repertuarını genişlədən Rasim Ələsgərovun da bəstələri “Şamaxı baharı”, “Şirvan təranələri”, “Qədim Şamaxı” adlı rəqsləri müəllifin ifasından nota alınaraq nəzəri təhlil edilmişdir.

**“2.3. Şamaxı bölgəsinin xanəndə sənətinin ifaçılıq ənənələri”** – adlanan paraqrafda bölgənin qədim tarixə malik xanəndə ifaçılıq ənənələrinin kökü, onun müasir xanəndə ifaçılığının inkişafındakı əvəzsiz rolunu ehtiva edir. Həmçinin bölgənin müxtəlif dövr məşhur xanəndələrinin yaradıcılığına nəzər salınmış, onların fəaliyyəti tədqiq edilmişdir. Onlar sırasında Mirzə Məhəmmədhəsən, Mirzə Güllər, Yavər Kələntərli, Alim Qasımov və s. yer almaqdadır

Regionun fərdi muğam ifaçılıq xüsusiyyətləri “məktəb” yaxud “muğam yolu” adlandırılaraq, məsələn Bakı məktəbi, Şamaxı məktəbi və s. kimi bir-birindən fərqləndirilərək hərəsi öz məktəb yolunu, ənənələrini müəyyən etmiş və ardıcıllarını yetişdirmişdir. Xanəndələrin ifaçılıq tərzləri, ənənləri “Qarabağ yolu”, “Şuşa məktəbi”, “Şamaxı yolu”, “Bakı məktəbi” və s. olmaqla bir-birindən seçilir və bu ifaçılıq yollarının inkişafında muğam məclislərinin də təkan verici rolu qeyd olunmalıdır.

Həmçinin paraqrafda Şirvan xanəndəlik məktəbinin ifaçılıq ənənələrinin özünəməxsus xüsusiyyətləri, tembr, dialekt, ifa tərzi kimi məqamlara da aydınlıq gətirilmişdir. Müasir dövr xanəndələrinin repertuar özünəməxsusluğuna əsasən təsnifatı aparılmışdır. Bu təsnifata əsasən xanəndələr üç yerə bölünmüşdür: **Klassik xanəndələr** – tarixdə iz qoymuş ustadlar, yalnız muğam, dəstgah və təsnif ifa edirlər.

**Aşıq-xanəndəsi** – ustad aşıqlarla məclislərdə iştirak edir, muğamlarla yanaşı, həm dəaşıq havacatları ifa edir. **Müasir xanəndələr** – diapazon və tembrinin imkan verdiyi, xalqın tələbinə uyğun hər bir parçanı repertuarına daxil edə bilir.

Dissertasiyanın **III Fəsili** “**Şamaxı bölgəsinin aşıq yaradıcılığında pişro janrı”** mövzusuna həsr edilmişdir. Buraya 3 paraqraf daxildir**. “3.1. Şirvan-Şamaxı aşıq mühitinin özünəməxsus xüsusiyyətləri”** – Azərbaycanın Şirvan bölgəsinin aşıq mühiti hər zaman öz fərdiliyi, repertuar rəngarəngliyi ilə diqqəti çəkmişdir. Şamaxının aşıq sənəti Şirvan mühitinin tərkib hissəsi kimi digər bölgələrdən özünəməxsus xüsusiyyətləri, qrup şəklində

fəlaliyyəti, dinamikliyi, temperamenti və zəngin yaradıcılığı kimi bir çox məqamları etibari ilə kəskin fərqlənir. Şirvan aşıq mühitində qədim paytaxt Şamaxının istedadlı aşıqlarının parlaq fəaliyyəti daim xüsusi vurğulanır. Həmçinin muğam, rəqs, ədəbiyyat və bir neçə sənət sahələrindən elementləri özündə cəm edir. Tarixi meqapolis olan Şamaxı ustad sənətkarların da durmadan inkişaf etdiyi, yaradıcılıqlarının səs-səda gətirdiyi bölgə idi. Burada müasir dövrümüzdə də aşıq sənəti ənənələri sadiqlik və ehtiramla yaşadılır.

Bilinən məlumata əsasən Şirvan aşıq sənətinin başlanğıcı XVI-XVII əsrə[32]. Şamaxıda yaşayıb-yaradan aşıqların sorağı isə XVII-XVIII yüzilliklərə dayandığı deyilsə də[33] fikrimizcə, Şirvan aşıq mühitinin Şamaxı bölgəsindən bəhrələnib inkişaf etdiyi fikrini dəstəkləyirik. Şamaxının qədim paytaxt, mərkəz olması onun Şirvan aşıq mühitinin də başlanğıcı olmasına əsas verir.

Həmçinin müasir dövrdə Şamaxıda aparılmış ərazi bölgüsü nəticəsində mədəniyyətinin başqa rayon adı altında səslənməsi ilə mövzu arealının genişlənməsi də nəzərə alınmalıdır.

Şirvan-Şamaxı aşıq mühitinin özünəməxsuslaşması və formalaşmasıda bir neçə məqam rol oynamışdır. Vaxtikən bölgənin mərkəz olması və saray mədəniyyətinin mövcudluğu, xalq tərəfindən aşıq yaradıcılığına diqqət və tələbat, bölgədə musiqi mədəniyyətin bir çox sahələrinin: folklor, muğam, ifaçılıq, mərasim ənənələri, rəqs və s. yüksək səviyyədə inkişafı sinkretik sənət növü olan aşıq yaradıcılığında da öz təsirini göstərmişdir. Bütün bu təsir edən amillər Şirvan-Şamaxı aşıq yaradıcılığının bədii-estetik məzmununun və lokal-ənənəvi xüsusiyyətlərinin müəyyənləşməsinə gətirib çıxarmışdır.

**3.2. “Pişro janrının tarixi arealı və Şirvan aşıq mühitindəki yeri”** – paraqrafda Şirvan aşıq repertuarına məxsus pişro janrının tarixi kökləri, forma yaradıcı prinsipləri araşdırılmış, janr haqqında bir çox məqama aydınlıq gətirilmiş, repertuarda aktuallığını qoruyan nümunələrin hər biri partitura şəklində nota alınaraq təhlil edilmişdir.

Tədqiqat zamanı Azərbaycanda pişro termini qarşımıza müxtəlif hərfi dəyişikliklərlə çıxdığından ilk öncə bu ad üzərində xüsusi

---

[32] Aşıq Əhliman: “Ustad aşıqların yaradıcılığı zamanla xalq yaradıcılığına çevrilir” // Palitra qazeti. – 2018.10 yanvar. – s.13

[33] Şamaxı / Cəfərzadə Ə.,Qəniyev S.,Alışov R.,[və b.],– Bakı:[n.y.],–1994, – 200 s.

dayanmağa ehtiyac duyuruq. Professor M.Qasımlı peşrovu "pişi-rah" ifadəsinin qısaldılmışı kimi, tədqiqatçı alimlərdən, etnomusiqişünaslardan K.Dadaşzadə öncəki tədqiqat işlərində "peşrov", daha sonralar "pişro"[34], Z.Hüseynova məqaləsinin adında "pişrov" mətn daxilində isə "peşrov", S.Ziyadlı "pişrou", X.Əliyeva isə dissertasiya işində "peşrov", aşıqşünas, alim T.Məmmədov əsərlərində "pişro"[35], "pişrov", Azərbaycan diringi və rəngləri kitabında isə "pişro"olaraq qeyd edir. Toponimik kökləri fars dilinə dayanan termini fars mənbələrində ətraflı araşdıraraq, yekunda "**pişro**" (*fars. Pish*-öndə ro – gedən) nəticəsinin üzərində dayanırıq. Vəzifəsi etibarilə istifadə olunduğu yerlərdə məclislərinin əvvəlində, "öndə gedən", "giriş" və s. kimi kökmənaları daşıyır. Pişro əslən fars mənşəli termin olsa da tədqiqatçı Sevinc Ziyadlı "Pişrou musiqi janrının tədqiqi məsələsinə dair" adlı məqaləsində janrın türkdilli xalqların yaradıcılığının məhsulu olduğu fikrini müdafiə edir. Həmçinin məqalədə pişro janrının tarixi kökləri, prototipləri aşkarlanıb tədqiq edilərək, müxtəlif xalqların yaradıcılığında muğam kompozisiyalarının, makom və türk fəsillərinin bir parçası kontekstində açıqlanır[36].

Şirvan aşıq repertuarının məşhur janrı olan **pişro**lar *(bölgənin aşıq mühitində, el dilində peşrov olaraq adlandırılır)* nisbətən daha yeni olub yaradıcı aşıqların repertuarına XIX-XX əsrlərdə daxil olmuşdur. Bildiyimiz kimi Azərbaycan aşıq sənətində pişroların ifası yalnızca Şirvan bölgəsi aşıqlarının yaradıcılığı üçün xarakterikdir. Pişro janrının məhz bu bölgədə geniş təşəkkül tapmasının səbəblərindən biri kimi "Böyük İpək Yolu" faktorunu qeyd etməliyik. Bu dövr xalqın mədəni həyatına da təsirsiz ötüşməmişdir. Aşıq və muğam yaradıcılığının dərin köklərlə bir birinə bağlı olduğu bölgə üçün bu janr maraqlı olmuş, onların repertuarına hoparaq özünəməxsuslaşmış, formalaşmış və tamamilə fərdi xüsusiyyətlərə malik bir janra çevrilmişdir. Pişroların kökü, sayı və s. kimi mübahisəli məqamlar doğurduğundan Şamaxı bölgəsi ənənəvi musiqi aspektindən araşdırılarkən bu janr tədqiqat üçün

---

[34] Azərbaycan musiqi tarixi: [cild I]/ – Bakı:Şərq Qərb, cild I. – 2012, – s. 79

[35] Məmmədov T. Azərbaycan aşıq yaradıcılığı. / Ali musiqi məktəbləri üçün dərslik. – Bakı:Apostrof, –2011. – s.56

[36] Ziyadlı S. Pişrou musiqi janrının tədqiqi məsələsinə dair// Azərbaycan Musiqi Tarixi və Müasir Dövr, – Bakı:ADK, – 1994, – s.115-119

xüsusi diqqət cəlb edir. Pişrolar gəraylı şeir şəklinə oxunan silsiləvi janrdır. Sözügedən paraqrafda pişro janrı tarixi kökləri və janr xüsusiyyətləri aspektlərindən geniş tədqiq edilmişdir.

**3.3. Şamaxı bölgəsində aparılan ekspedisiyalar nəticəsində toplanmış pişro nümunələrinin elmi-nəzəri təhlili** adlanır. Burada tədqiqat çərçivəsində say müxtəlifliyinə gətirib çıxaran səbəblər təyin edildiyindən, pişroların sayı ilə bağlı mübahisəli mövzuları sonlandırmaq üçün bütün işlək prişrolar toplanmış, sistemləşdirilmişdir. Pişroların səs yazılarına əsasən nota saldığımız nümunələr haqqında ətraflı elmi təhlil üzərində dayanılmışdır. Bu paraqraf 11 pişro nümunəsinin hər birinin ayrılıqda elmi-nəzəri təhlilini ehtiva edir. Qeyd edək ki, bütün işlək nümunələr ekspedisiyalar nəticəsində toplanmış bu nümunələr ansanbl şəklində nota salınmış təhlil olunmuş, partituralar isə əlavə cilddə cəmlənmişdir. Dissertasiyanın **Nəticə** bölməsində tədqiqat işinə yekun vurulmuş, araşdırma zamanı əldə olunmuş yekun elmi nəticələr bəndlərlə aydın şəkildə təqdim edilmişdir. Elmi nəticələrin 29 bənddə izahı verimişdir. Gəlinən əsas nəticələrin bir hissəsi aşağıdakı kimidir:

Şamaxının dəfələrlə yıxıcı zəlzələlərə məruz qalması ilə baş verən kütləvi köçlər nəticəsində bu mədəniyyət müəyyən qədər digər bölgələrə də sıçramış, şaxələnərək inteqrasiya etmişdir. Beləliklə, Şamaxı mədəniyyətinin ümumi təsir arealı da böyümüşdür. Nəticədə Bakı, Qarabağ və digər bölgə xanəndələrinin yaradıcılığında da Şirvan aşıq havalarının mahnı, təsnif, rəng kimi istifadəsinə rast gəlmək mümkündür. Onlardan günümüzdə hələ də öz aktuallığını qoruyan “Ana Kürüm”, “Məhəbbətin qüdrəti”, “Kəndimiz”, “Mail olmuşam”,“Sarı köynək”, “Nar ağacı, nar çiçəyi” və s. kimi dillər əzbəri parçaları nümunə gətirə bilərik.

Şamaxı aşıqları, öz məharəti etibarilə bir neçə xüsusiyyəti özündə cəm edir: muğam bilikləri, xanəndəlik, aşıq mahnısı bəstələmə, pişro yaradıcılığı, repertuar fərdiliyi, rəqs bacarığı, yüksək ritm duyğusu, ansambl idarəçiliyi və s. bütün bu özünəməxsusluqla paralel olaraq ustad aşıqların yaradıcılığında dastan ənənələri də qorunub saxlanılmaqdadır.

Şamaxıda sevilərək yaşadılan sənətlərdən biri də zurna-balaban ifaçılığıdır. Onlar təkcə ifaçılıqla kifayətlənməyərək Şirvanın musiqi

irsini də dolğunlaşdırmaqda, öz bəstələri ilə zurna-balaban ifaçılığı repertuarına rəng qatmaqdadırlar. Rəqslərin sanki peşəkar bəstəkar tərəfindən yazılmış kimi – forma mükəmməlliyi (A-B-A) xüsusi diqqət çəkməkdədir.

Bundan əlavə bölgədə pişro yaradıcılığı zurna-balaban repertuarının da önəmli hissəsini təşkil edir. Pişro janrı aşıq sənətində olduğu qədər bölgənin instrumental ifaçılıq ənənələrində də özünəməxsus yerə malikdir. Həmçinin balaban ifaçılarının pişroların bərpasında da olan xidmətləri danılmazdır. Ustad Əli Kərimovun adını daşıyan “Əlicadi” pişrosu buna dəyərli nümunələrdəndir. Onlar həm pişroların instrumental formada mahir ifaçısı, həm də aşıq ansamblının aparıcı qüvvələrdəndirlər.

Gəldiyimiz nəticəyə görə bölgədə pişro janrı öncə intrumental şəkildə mövcud olmuş, daha sonralar zurna-balaban ifaçılığından söz qoşularaq aşıq repertuarına keçid etmişdir.

Şirvan (Şamaxı) bölgəsinin aşıq sənətini özünün xarakterik xüsusiyyətlərinə görə digər bölgələrdən fərqləndiririk:

- Bölgənin aşıq sənətində ifaçılıq ənənələri (dialekt), aşığın səs tembri, ifa tərzinin özünəməxsusluğu
- aşıq havaları daxilində muğam parçalarından istifadə
- ansambl tərkibi və bu tərkibə daxil alətlərin vəzifə bölgüsü nəticəsində Şirvan aşıq melodiyalarında yaranan özünəxas forma prinsipləri
- Şirvan (Şamaxı) aşıq sənətində rəqs ənənələri
- repertuar fərdiliyi və xüsusi janrlara malik olması
- novatorluq; yaradıcı aşıqların çoxluğu, aşıq mahnısı qoşmaları.

Bu yarımbaşlıqlar sayəsində bölgənin aşıq sənətini açmaq mümkündür.

Əldə olunan növbəti nəticəyə görə bölgə aşıqlarının ifasında səslən havacatların böyük qismində ədəbi mətnə əlavə olunan nidalara, “buy aman”, “balam ey”, “hey”, “ey”, “neylək, dərdün aldığım”, “alagöz”, “ay canan” və s. kimi xüsusi sözlərə rast gəlinir. Bunlar əksər hallarda ədəbi mətnin heca sayını artıraraq melodiya uzunluğu ilə ayaqlaşmağa xidmət edir. Bəzi hallarda melodik fikrin tamamlanması məqsədi ilə 1 hecanın xırdalıqlarla uzadılması, yaxud nida, sadə söz birləşmələrindən istifadə hallarına da rast gəlinir.

Muğam ənənələrinin Şirvan aşıq sənətinə olan güclü təsiri

ifaçıların səs tembrində də fərqlilik, fərdilik yaradır. Onları digər bölgə ifaçılarından fərqləndirən əsas səs tembr xüsusiyyətini yaradan amil – onların beyin rezonatorundan deyil, sinə, boğaz vasitəsi ilə yaradılan səs imkanlarından geniş istifadəsi ilə daha dolğun səslə ifa etmələrindədir. Bu ifaçılıq texnikası da onları muğam ifaçılarının səs tembrləri ilə yaxınlaşdırır. Bundan əlavə dissertasiya daxilindəki təhlil zamanı qeyd olunduğu kimi sıçrayışlı oxuma tərzi Şirvan aşıqlarının ifaçılıq xüsusiyyətlərinə bir o qədər də xas deyil. Həmçinin ifa tərzində istifadə olunan boğaz, xırdalıq, ayaq və kadensiyalarda da, hətta havacatların orta bölməsində muğam ənənələrinə, muğam parçalarına rast gəlmək mümkündür. Bu ənənə də birbaşa bölgədəki aşıqların şagirdlik dövründə paralel olaraq aldığı muğam dərslərinə dəlalət edir. Həmçinin "Ayaqçı xanəndə", "yerdə oturan xanəndə" adı altında ustadı ilə birlikdə məclislərdə fəaliyyət göstərmələri ilə də əlaqədardır.

Dissertasiya işinin önəmli qismini Şirvan aşıq repertuarının ən parlaq nümunələrindən olan pişro janrının ətraflı tədqiqi təşkil edir. İlk öncə müxtəlif formalarda adlandırılan janrın dilimizdə düzgün tələffüzünün "pişro" olduğu qənaətinə gəlinmişdir. Sahə araşdırması zamanı mövcud oxunan, aktual pişroların hamısı video material kimi toplanmışdır. Gəldiyimiz nəticəyə görə hazırda repertuarda işlək 11 pişro nümunəsi vardır. Tədqiqat zamanı gəlinən nəticəyə görə də pişroların böyük qisminin şur məqamına əsaslanması da xüsusi diqqət çəkir. Beləliklə şur məqamından aşıq sənətində geniş istifadə faktoru özünü Şirvan (Şamaxı) aşıq yaradıcılığında da aydın büruzə verir. Həmçinin bu məqamın geniş istifadəsi bölgəyə məxsus musiqi folklor nümunələrində də müşahidə olunmaqdadır.

Şirvan aşıq məktəbi üçün ənənəvi olan muğam təsiri özünü pişro nümunələrində də göstərir. Belə ki, bir çox pişroda ifaçılar kulminasiyada yaxud sonluqda muğamdan hissə ifa edərək öz çoxşaxəli yaradıcılıq və səs imkanlarını nümayiş etdirirlər. Bununla yanaşı nümunələr arasında "Oba köçdü", "İbrahimi" (müasir variantı) kimi bir xətt üzrə monoton, kulminasiyasız irəliləyən pişrolara da rast gəlinir.

Bəhrli qrupa aid pişrolar üçün sabit ritm xasdır. Pişroların əsas xarakterik xüsusiyyətlərdən biri də vahid ritmik quruluşa əsaslanmalarıdır. Əldə olunmuş bütün nümunələr 6/8 vəznə əsaslanır. Bu

ümumiləşdirilmiş özünəməxsus xüsusiyyətlər, dissertasiya çərçivəsində təhlil edilmiş 11 pişronun vahid quruluşda, silsiləvi janr olmasını təsdiq edir.

Azərbaycan xanəndə ifaçılıq ənənələrində "Şirvan xanəndəlik yolu", "Şamaxı xanəndə məktəbi" anlayışı mövcuddur ki, bu da bölgə sənətçilərinin fərdi, xarakterik xüsusiyyətlərinin varlığına dəlalət edir:

- Dialektik özünəməxsusluq
- Xanənin zərbli hissələrinə vuğulu ifa
- İfaçılıq texnikası
- Tembr xüsusiyyətləri
- Repertuar fərdiliyi (buna əsasən 3 qrupa bölünürlər)
- Aşıq sənəti ənənələrinin təsiri
- Yüksək ritm duyumu,

Onları digər bölgə sənətçilərindən fərqləndirən əsas amillərdəndir. Yuxarıda qeyd olunan məqamlar ayrı-ayrılıqda müvafiq paraqrafda ətraflı təhlil edilmiş və nəticələr əldə olunmuşdur.

Dissertasiya üzrə gəlinən elmi nəticələrin gələcəkdə tədqiqat işləri üçün, bu mövzu üzrə əlavə ədəbiyyat, mənbə kimi və s. tətbiqi istiqamətdə, nəzəri əhəmiyyəti vardır. Həmçinin dissertasiya işi çərçivəsində toplanmış musiqi materiallarının, partituraların, rəqslərin not yazılarının ansambl şəklində ifaçılar tərəfindən müraciət olunması, unudulmaması, ifası baxımından da praktiki əhəmiyyət daşımaqdadır. Aşıq sənəti, balaban ifaçılığı üzrə Şirvan (Şamaxı) musiqi mühiti mövzusunda tədris aparılarkən bölgənin musiqi mədəniyyəti ilə yaxından tanışlıq baxımından not nümunələri praktiki parçalar kimi istifadə oluna bilər. Arxiv materialları əsasında nota alınmış bu nümunələr bütövlükdə dissertasiyanın **əlavələr** hissəsində yer alır.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. İsrafilova, İ.Q. Azərbaycanın Şamaxı bölgəsinin xanəndəlik sənətinin ifaçılıq ənənələri. // Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri,XVII Beynəlxalq elmi-praktiki konfrans, – Bakı: – 2018, – s.287-290
2. İsrafilova, İ.Q. Azərbaycanın Şamaxı bölgəsinin musiqi və rəqs ənənələri. // IV. Uluslararası Müzik ve Dans Kongresi,

– Bodrum: – 19-21 oktyabr, – 2018, – s.242-246

3. İsrafilova, İ.Q. Azerbaycan mugamının gelişiminde Şamakhi bölgesinin mugam geleneklerinin rolü. // III^rd European Conference on science, Art & Culture. – Gazimağusa: Gece Akademi, –12-14 oktyabr, – 2018. – s.17
4. İsrafilova, İ.Q. Şamaxıda etnomuzikoloji ekspedisiya. // – Bakı: Konservatoriya, – 2019. № 4 (46), – s.47-51
5. İsrafilova, İ.Q. Şirvan muğam sənətinin inkişafında ustad xanəndə Mirzə Məhəmmədhəsən yaradıcılığının əhəmiyyəti. // Pontokaspi və Qafqaz bölgəsi: ekosistemlərin birləşməsi və izolyasiyası şəraitində dəyişikliklər, canlıların filogenezi, geologiya, ekologiya və coğrafiyası Multidisiplinar Beynəlxalq Konfrans. – Bakı: – 27-28 noyabr, – 2020. – s. 481-485.
6. İsrafilova, İ.Q. Əlicadi (Əli icadı) peşrov. // – Bakı: Elmi əsərlər, – 2021. № 29, – s. 148-154
7. İsrafilova, İ.Q. Şamaxının musiqi tarixi və mədəni mənzərəsi elm xadimi Seyfəddin Qəniyevin tədqiqatlarında // – Bakı: Konservatoriya. – 2021. №1 (50), – s.63-74
8. İsrafilova, İ.Q. Şirvan (Şamaxı) bölgəsinin musiqi ənənələrində balaban alətinin yeri və əhəmiyyəti. // – Bakı: Musiqi Dünyası. – 2021. № 1/86, – s. 93- 99
9. İsrafilova İ.Q. Şirvan (Şamaxı) bölgəsinin aşıq-xanəndə yaradıcılığının qarşılıqlı sənət münasibətləri və xarakterik xüsusiyyətləri. // – Bakı: Sənət Akademiyası, – 2021. №1 (13) 2021, – s. 19-25
10. İsrafilova, İ.Q. Elm xadimi Seyfəddin Qəniyevin tədqiqatlarinda Şamaxının musiqi tarixi və mədəni mənzərəsi. // – Bakı: Qərbi Kaspi Universiteti, – 2021. № 4, – s. 47-53
11. Исрафилова, И.Г. Шемси-гемер пешров. // – Москва, Музыка и время, – 2021. № 4, – s. 47-52
12. Abdullayeva, İ.Q. Şirvan bölgəsinə aid pişro janrının tarixi kökləri və inkişafı. // Türkiyə Cümhuriyyəti-100. – Bakı: – 26-27 oktyabr, – 2023. – s.12-16
13. Abdullayeva, İ.Q. Şamakhi Bölgesi Geleneksel Müzik Kültürü. // XIII. Uluslararası Müzik ve Dans Kongresi. – Doha: – 10-13 fevral, –2025, – s.218-225

Dissertasiyanın müdafiəsi ____ _____________ 2025-cü il tarixində saat ______ Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat ____ ___________ 2025-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 12.09.2025

Kağızın formatı: 60x84 1/16

Həcm: 45957 işarə

Tiraj: 100